# "Aktyor sənətini öyrən" layihəsi davam edir

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Mədəniyyət Elmi-Metodiki və İxtisas Mərkəzi (MEMİM) və Azərbaycan Rəssamlıq Məktəbinin "Aktyor sənətini öyrən" layihəsi davam edir. Təlimin ilk üç ayının nəticələrinə əsasən layihə çərçivəsində imtahanlar təşkil olunub.



Noyabrın 30-da ilk imtahan musiqili tamaşalar olub: Əməkdar artist Qurban Məsimovun TKA 05/24 (Teatr və Kino) kiçik qrupunun quruluşunda "Mama" və Əməkdar artist Qasım Nağının rəhbərliyi ilə TKA 03/24 kiçik qrupun quruluşunda "Gülüncün nağılı". İmtahanlar uğurla keçib, tamaşaçılar gənc istedadların çıxışlarını mehribanlıqla qarşılayıblar.

Dekabrın 11-də Azərbaycan Rəssamlıq Məktəbinin TKA 07/24 saylı yuxarı yaş qrupu üzrə "Etüdlər" imtahanı keçib. Kursun rəhbəri Xalq artisti Məmmədsəfa Qasımovdur.

Nağılların müəllifi Gülzar İbrahimova, teatrşünas Dağlar Yusif, respublikanın Əməkdar artisti Elman Rəfiyev, Xalq artisti Cəfər Namiq Kamal və başqaları tamaşalarla bağlı fikirlərini bildiriblər. Onlar layihənin əhəmiyyətini və tələbələrin çıxışını yüksək qiymətləndirib, tədris proqramının qısa müddətdə uğurla mənimsənildiyini vurğulayıblar.

"Aktyor sənətini öyrən" layihəsinin əsas məqsədi uşaq və yeniyetmələr arasında peşəkar teatr sənətinin populyarlaşdırılması, müstəqil incəsənət təhsili sahəsinin peşəkarlaşdırılması, bu istiqamətdə konseptual yeniliklərdən səmərəli istifadə etməkdir.

Azərbaycan.- 2024.- 28 dekabr (№288).- S.19.